# Qazi qardaşlarımız dövlətin hər cür qayğı və diqqəti ilə əhatə olunub

***İkinci Qarabağ müharibəsi uğurla başa çatdıqdan, Azərbaycanın ərazi bütövlüyü təmin olunduqdan sonra ölkədə bir tərəfdən, azad olunmuş ərazilərin bərpası, digər tərəfdən isə, müharibədə şəhid olmuş hərbçilərimizin ailələrinə və yaralanmış əsgərlərimizə yüksək səviyyədə qayğı və diqqət göstərilməsinə başlandı. Azərbaycan Prezidenti İlham Əliyev özünün, demək olar ki, bütün çıxışlarında Vətən müharibəsində iştirak etmiş hər kəsə yüksək qiymət verdiyini, bütün dövlət qurumlarının onlara diqqət göstərməli olduğunu bəyan edib.***

Müharibədən dərhal sonra Azərbaycan Prezidenti, Ali Baş Komandan bütün döyüşçülərin müxtəlif orden və medallarla təltif edilməsi haqqında fərmanlar imzalayıb, bir çoxlarına Vətən Müharibəsi Qəhrəmanı fəxri adı verilib. Eyni zamanda, dövlət müharibədən dərhal sonra qazilərə yüksək səviyyədə qayğı göstərməyə, onların istər ölkədəki xəstəxanalarda, istərsə də xaricdə müalicəsini təşkil etməyə başlayıb. Minlərlə gənc döyüşçüyə müharibədə aldıqları yaralar nəzərə alınaraq əlillik dərəcəsi verilib, pensiya təyin olunub. Şəhidlərimizin ailələrinə müavinətlər təyin edilib. Eyni zamanda, bütün müharibə iştirakçılarına "Müharibə veteranı" adı və təbii ki, müvafiq müavinət verilib.



Qazilərə dövlət qayğısı bu gün də azalmayıb, əksinə artıb. Bir çoxları bu və ya digər dövlət qurumunda, icra strukturlarında, ASAN xidmət və DOST mərkəzlərində işlə təmin olunublar. Bununla belə, bu gün – aradan ilyarımdan çox vaxt keçdikdən sonra bəziləri dövlətin bu qayğı və diqqətindən sui-istifadə etməyə çalışaraq, nələrsə əldə etmək istəyirlər ki, bu da istər-istəməz cəmiyyətdə, xüsusən qazilər arasında narazılıq yaradır.

Elə bugünlərdə bir qrup Vətən müharibəsi qazisi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə gələrək, ölkəmizdə şəhid ailələri və qazilərin sosial müdafiəsi sahəsində aparılan işlərdən, görülən tədbirlərdən razılıqlarını bildiriblər. Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən verilən məlumatda bildirilib ki, qazilər Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin göstərişi ilə müharibədən sonra şəhid ailələri və müharibə iştirakçılarının genişmiqyaslı və çevik sosial dəstək tədbirləri ilə əhatə olunması üçün görülən tədbirlərə görə dövlət başçısına minnətdarlıqlarını ifadə ediblər. Onların sözlərinə görə, qırx dörd günlük Vətən müharibəsindən sonra şəhid ailələri və qazilərin rifahının yaxşılaşdırılması üçün ardıcıl şəkildə həyata keçirilən tədbirlər bu kateqoriyadan olan vətəndaşlara xüsusi qayğıdan xəbər verir.

Qazilər həm də onların mənzillə, avtomobillə, işlə, reabilitasiya xidmətləri ilə təminatı və sair sahələrdə aparılan işlərdən razılıqlarını ifadə ediblər. Onlar müalicə olunduqları dövrdə dövlət başçısı və Birinci vitse-prezident tərəfindən dəfələrlə ziyarət edildiklərini, müalicədən dərhal sonra isə operativ şəkildə sənədləşmə aparılmaqla əlilliklərinin qiymətləndirilməsinin aparıldığını, Vətən müharibəsində yaralanaraq əzalarını itirmiş qazilərin son nəsil protezlərlə təmin olunduqlarını xüsusilə qeyd ediblər.

Görüşdə çıxış edən əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Əliyev Prezident İlham Əliyevin göstərişi ilə şəhid ailələri, müharibə iştirakçıları ilə əlaqədar nazirliyin sosial dəstək paketinin hazırda da davam etdirildiyini bildirib. Onun sözlərinə görə, sosial dəstək paketi artıq 100 min şəxsi əhatə edib, onlara 175 min xidmət göstərilib. Onlardan 93 min nəfərə proaktiv qaydada 103 min sosial ödəniş təyin olunub. Müalicə müddəti başa çatan qazilərdən artıq 3 min şəxsə əlillik dərəcələri və avtomatik şəkildə sosial ödənişlər təyin edilib. Vətən müharibəsindən sonra həmin müharibə şəhidlərinin ailələrinin və qazilərinin mənzillə təminatına başlanılıb. Postmüharibə dövründə 3500, ümumilikdə ötən dövrdə 12500 şəhid ailəsi və müharibə əlili mənzil və fərdi evlə təmin edilib.

Nazir müavini deyib ki, Vətən müharibəsinin 200 hərbçisi, ümumilikdə 300 müharibə əlili yüksək texnologiyalı son nəsil protezlərlə təmin olunub. 1400 müharibə əlilinə 18 mindən çox reabilitasiya vasitəsi verilib. 5 min ailə sosial-psixoloji, 2500 qazi reabilitasiya xidmətləri ilə təmin edilib. Artıq 11 mindən çox qazi və şəhid ailəsi aktiv məşğulluq proqramlarına cəlb olunub. Son 4 ildə 1450-dək, ümumilikdə ötən dövrdə 7400 müharibə əlilinə avtomobillər verilib. Son illərdə şəhid ailələri və müharibə əlillərinə yönələn sosial ödənişlər də dəfələrlə artırılıb. 2021-ci il dekabrın 29-da verilən sərəncamla "Müharibə veteranı" adı verilmiş veteranlara Prezidentin aylıq təqaüdünün təyinatı prosesi icra olunub. Bu gün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi sistemində çalışan bir çox əməkdaş da Vətən müharibəsinin qazisidir. Əlilliyinin qiymətləndirilməsi sistemində də müharibədə iştirak etmiş həkim-ekspertlər çalışırlar.

Şəhid ailələri və qazilərlə əlaqədar sosial dəstək tədbirləri bu gün də davam etdirilir. Bir çox qazilərimizin qardaş Türkiyənin tibb müəssisələrində müalicəsi təşkil olunur. Bütün bunlar qazi qardaşlarımızın dövlətimiz, şəxsən Prezident və Birinci vitse-prezident tərəfindən hər cür qayğı və diqqətlə əhatə olunduğunu göstərir.

***Paşa ƏMİRCANOV,***
***"Xalq qəzeti"***